# Turizmə yatırılan sərmayələr öz bəhrəsini verir



**Ölkəmizə səfər edən, respublikamızdan xoş təəssüratlarla ayrılan turistlərin etiraf etdikləri kimi, Azərbaycanda dincəlmək üçün yaradılan şərait hər kəsi qane edir. Qəbuledilən proqramlar əsasında turizm sahəsində beynəlxalq standartlara cavab verən üç və beşulduzlu mehmanxanalar tikilir. Təsadüfi deyil ki, respublikamıza gələn turistlərin sayı da ildən-ilə artmaqdadır. Paytaxtla yanaşı, bölgələrimizdə də yeni turizm zonaları yaradılır.**

Dövlətimizin başçısı İlham Əliyev ölkəmizdə turizmin inkişafını vacib istiqamətlərdən biri kimi daim diqqət mərkəzində saxlayır. Məhz bu səbəblə Azərbaycanda 2011-ci ilin "Turizm İli" elan edilməsi bu sahənin daha da inkişaf etdirilməsi istiqamətində atılmış mühüm addım oldu. Kifayət qədər turizm potensialı olan Azərbaycan bu sahədə dünyanın aparıcı ölkələri ilə rəqabətə girməyə və öz imkanlarını nümayiş etdirməyə qadirdir. Ölkəmizin turizm imkanları ilə maraqlanan əcnəbilər bu sahəyə göstərilən dövlət qayğısını da yüksək qiymətləndirirlər. Artıq beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilən Azərbaycanda turizm sərgilərinin təşkili bu sahəyə olan marağın göstəricisidir. Belə sərgilər həm də ölkəmizin turizm imkanlarının nümayiş etdirilməsi üçün əlverişli imkanlar yaradır.

Azərbaycanda turizmin bugünkü inkişaf tempi onu deməyə əsas verir ki, ölkəmizdə davamlı inkişaf tendensiyası uğurla həyata keçirilir. Bunu faktlar da sübut edir. Təkcə 2019-cu ilin iyul ayında Azərbaycana 365 min əcnəbi qonaq səfər edib ki, bu da 2018-ci ilin iyul ayına nisbətdə 10.6% artım deməkdir. Bu barədə məlumatı Dövlət Turizm Agentliyi açıqlayıb. Agentliyin məlumatında qeyd olunur ki, xarici qonaqların üçdə birindən çoxunu - 35%-ni Rusiyadan gələnlər təşkil edib: "2018-ci ilin eyni ayı ilə müqayisədə Rusiyadan 11 min və ya 10% çox qonaq gəlib. İyul ayı üzrə ən böyük artım Gürcüstandan gələnlər arasında müşahidə olunub. Belə ki, ötən ilin eyni ayı ilə müqayisədə 12 min və ya 26% daha çox xarici vətəndaş gəlib. Bununla da iyul ayında Gürcüstandan gələnlərin sayı 61 min nəfər təşkil edib. Səudiyyə Ərəbistanından səyahət edənlərin sayı 25% artaraq rekord həddə - 29 minə çatıb. Cari ilin yanvar-iyul aylarında Azərbaycanı 1.8 milyon xarici səyahətçi ziyarət edib ki, bu da 2018-ci ilin ilk yeddi ayı ilə müqayisədə 122 min və ya 7.4% çoxdur. Ən böyük artım 76 min və ya 23% olmaqla Gürcüstandan gələnlərin sayında müşahidə edilib. Mərkəzi və Cənubi Asiyadan gələn səyahətçilərdə də müvafiq olaraq 39% və 44% artım qeydə alınıb. Ən yaxşı turistik bazarlar sayılan Rusiya və Türkiyədən gələnlərin sayı isə 4% artıb".

Prezident İlham Əliyev regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının yekunlarına həsr olunan konfransda bildirib ki, son illərdə Azərbaycana gələn turistlərin sayı getdikcə artır və bu, çox müsbət haldır: "Keçən il gələn turistlərin sayı təqribən 6 faizə yaxın artmışdır. Keçən il ölkəmizə əvvəlki illərdən daha çox - 2 milyon 850 min turist gəlmişdir. Bu turistlər ölkəmizdə 2 milyard dollara yaxın pul xərcləmişlər. Bu, belə demək olarsa, əlavə 2 milyard dollar ixrac deməkdir. Artıq bu rəqəm göstərir ki, turizmin nə qədər böyük əhəmiyyəti var. Bu pullar xidmət sektoruna gedir, vətəndaşlar, sahibkarlar bundan faydalanırlar. Yəni bu pullar birbaşa o şirkətlərə gedir ki, onlar bölgələrdə turistlərə müxtəlif xidmətlər göstərirlər. Çünki turistlərin böyük hissəsi artıq Azərbaycanın bölgələrinə gedir. Bütün lazımi şərait yaradılır və turizm sənayesi Azərbaycanda çox geniş imkanlara malik olmalıdır".

**Mənsumə Babayeva,**
***"İki sahil"***